*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 110–118
https://doi.org/10.48445/n7051-8106-6071-f

# Müasir təhsil sistemində Azərbaycan dilinin inkişaf perspektivləri

***Aynur Bədəlova*** [1]

**XÜLASƏ**
*Azərbaycan dilinin qorunub saxlanılması və inkişafı perspektivləri təhsil sistemində dilin istifadəsi ilə tənzimlənir. Belə ki, Azərbaycan dili ölkənin bütün təhsil müəssisələrində əsas tədris dili olaraq formalaşmışdır. Müasir dövrümüzdə məktəblərdə və ali təhsil müəssisələrində Azərbaycan dili fənninin tədrisində keyfiyyətin yüksəldilməsinə olduqca böyük önəm verilir. Təhsil proqramlarının hazırlanması, məktəb dərsliklərinin daha da təkmilləşdirilməsi, onlayn platformaların yaradılması, rəqəmsal resursların inkişaf etdirilməsi dilin gənclər arasında işçi dil olaraq istifadəsinə əhəmiyyətli təsir göstərir. Məqalədə Azərbaycanda təhsil sisteminin inkişafında ana dilinin rolu, istifadə imkanları, müstəqillik əldə etdikdən sonra dilin, milli dəyərlərin, adət-ənənələrin, mədəniyyətin təhsil sahəsində islahatlar yolu ilə həyata keçirildiyi araşdırılır. Azərbaycan dilinin təhsil sistemində inkişafına dövlət səviyyəsində fəal dəstəyin həyata keçirilməsi müasir dövrdə həm məktəb, həm də ali təhsil müəssisələrində savadlı və mədəni mühitin formalaşmasına, öyrənənlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə geniş imkanlar açır.*

**AÇAR SÖZLƏR**
*təhsil, dil, məzmun, sistem*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 27.02.2025
Qəbul edilib: 18.04.2025

[1] Müəllim, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0002-9288-6218 | badalovaaynurrr@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 110–118
https://doi.org/10.48445/n7051-8106-6071-f

# Development Prospects of the Azerbaijani Language in the Modern Education System

***Aynur Badalova*** [1]

**ABSTRACT**
*The prospects for the preservation and development of the Azerbaijani language in the education system are regulated by the use of the language. Thus, the Azerbaijani language has been formed as the main language of instruction in the country's educational institutions. In our modern era, great importance is attached to improving the quality of teaching the native language in schools and higher education institutions. The preparation of educational programs, further improvement of school textbooks, creation of online platforms, development of digital resources have a great impact on the use of the language as a working language among young people. The article examines the role of the native language in the development of the education system in Azerbaijan, its use opportunities, and how the language, national values, customs and traditions, and culture were implemented through reforms in the field of education after independence. The implementation of active support at the state level for the development of the Azerbaijani language in the education system opens up wide opportunities for the formation of a literate and cultural environment in both schools and higher education institutions in the modern era and for increasing the competitiveness of learners.*

**KEYWORDS**
*education, language, content, system*

**ARTICLE HISTORY**
Received: 27.02.2025
Accepted: 18.04.2025

[1] Teacher, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0009-0002-9288-6218 | badalovaaynurrr@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Azərbaycan dilinin qorunub saxlanılması və inkişafı bütün azərbaycanlılar üçün mühüm vəzifədir. Düzgün qeyd edilir ki: *"Ana dilinin cəmiyyətdə inkişafı, onun təkmilləşdirilməsi, saflığı ilə bağlı problemlər milli mədəniyyətin əsas məsələlərindəndir"* (Əliyeva, 2019, s. 9). Müasir dövrdə dillə bağlı vəziyyət ölkədə baş verən mədəni, siyasi və sosial proseslərlə, eləcə də dünya dillərinin artan təsiri ilə bağlı olub, beynəlxalq sferada inkişaf perspektivlərinə əsasən təkmilləşməkdədir. S. Quliyevanın qeyd etdiyi kimi: *"Dil dövlət siyasətinin tərkib hissəsidir və dil quruculuğu, onun öyrədilməsi, düzgün istifadəsi və qiymətləndirilməsi bu gün qarşıda duran prioritet məsələ hesab olunur"* (Quliyeva, 2023).

Azərbaycan dilinin qorunub saxlanılması və inkişafı perspektivləri təhsil sistemində dilin istifadəsi ilə tənzimlənir. Belə ki, Azərbaycan dili ölkənin təhsil müəssisələrində əsas tədris dili olaraq formalaşmışdır. Müasir dövrümüzdə məktəblərdə və ali təhsil müəssisələrində ana dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsinə olduqca böyük önəm verilir. Təhsil proqramlarının hazırlanması, məktəb dərsliklərinin təkmilləşdirilməsi, onlayn platformaların yaradılması, rəqəmsal resursların inkişaf etdirilməsi dilin gənclər arasında işçi dil olaraq istifadəsinə geniş imkan yaradır.

Bildiyimiz kimi, xarici dillərin, xüsusilə də ingilis dilinin təsiri peşəkar sahələrdə və biznes sferasında olduqca önəmlidir. Karyera imkanlarının əldə edilməsi və beynəlxalq əlaqələrin qurulmasında ingilis dilinin əsas tələb kimi qoyulması gənclərimizin bu dili fəal şəkildə öyrənməsinə marağı artırır. Bu tendensiya Azərbaycan dilinin saflığının qorunub saxlanmasında, dil xüsusiyyətlərinin itirilməsinin qarşısının alınmasında müəyyən problemlər yaradır. Bununla bağlı ölkə başçımızın dil siyasətinə göstərdiyi xüsusi qayğı, Azərbaycan dilinin bütün sahələrdə ilk işçi dil kimi qəbul edilməsi tələbi dilimizin qorunması baxımından böyük töhfədir.

Müasir dövrdə Azərbaycan kütləvi informasiya vasitələrində, ədəbiyyatda, kinoda və musiqidə fəal şəkildə tətbiq edilir. Televiziya və radio kimi kütləvi informasıya vasitələrinə dövlət dəstəyi dilimizin statusunun qorunmasına kömək edir. Mədəniyyət sahəsində dilin geniş istifadəsi, müxtəlif tədbir və festivalların keçirilməsi, eləcə də mədəni mübadilələrin aparılması dilimizin beynəlxalq aləmdə tanınmasına şərait yaradır.

Xaricdə yaşayan azərbaycanlılar da dilimizin qorunmasına öz töhfələrini verməlidirlər; vətəndən kənarda yaşamaqlarına baxmayaraq, övladlarına ana dilini öyrətməli, həmçinin Azərbaycan səfirliklərinin təşkil etdiyi mədəni-kütləvi tədbirlərdə fəal iştirak etməlidirlər.

Bildiyimiz kimi, internet platformaları, sosial şəbəkələr və dil öyrənmə proqramları kimi müasir texnologiyalar Azərbaycan dilinin gənclər arasında yayılması üçün yeni

imkanlar formalaşdırır. Bu kontekstdə internetdə Azərbaycan dilində resursların yerləşdirilməsi, tərcümə proqramlarında ana dilində sözlərin səsləndirmə funksiyasının təmin edilməsi, həmçinin dilimizin tədrisi üçün istifadə oluna bilən texnologiyaların çatışmazlığının aradan qaldırılması olduqca vacibdir.

Tədqiqatın məqsədi ölkənin inkişafının yeni mərhələsi kontekstində strategiyaların və təhsil islahatlarının həyata keçirilməsi nəticəsində xalqın dil savadlılığının təkmilləşməsini, müstəqil Azərbaycanda milli kimliyin və mədəni dəyərlərin formalaşmasında təhsil sistemində ana dilinin əsas vasitə kimi əhəmiyyətini vurğulamaqdır.

## Metodlar

Məqalədə bir sıra metodlardan istifadə edilmişdir. Tarixi və analitik metodların tətbiqi dil təhsili sahəsində vəziyyətin necə dəyişdiyini, qəbul edilən strateji qərarları və bu dəyişikliklərin təhsil sistemi üçün nəticələrini təhlil etməyə kömək etmişdir. Məqalədə həmçinin müqayisəli metoddan da istifadə olunmuşdur. Bu metod sovet və müstəqil təhsil sistemləri arasındakı fərqləri göstərməyə, ana dili ilə xarici dillərin müqayisəsini aparmağa, eləcə də mədəni dəyərlərin tədrisinə yanaşmalardakı dəyişiklikləri müəyyən etməyə imkan yaratmışdır. Problemyönümlü metod isə Azərbaycan dilinin dövlət dili kimi möhkəmləndirilməsi, müstəqillik dövründə milli mədəniyyətin və dilin inkişafı ilə bağlı problemlərin həllinə yönəlmişdir.

Təsvir metodu vasitəsilə Azərbaycan dilinin əsas tədris dili kimi qəbul edilməsi, təhsil sahəsində baş verən proseslərin izahı üçün təsviri elementlərdən istifadə olunmuş, xalqın dil biliyinin artırılmasına yönəlmiş proqram və addımlardan bəhs edilmişdir.

Bu metodlardan istifadə tədris prosesində ana dilinin rolunu daha dərindən anlamaqla yanaşı, Azərbaycanın siyasi və mədəni müstəqilliyi şəraitində onun qorunub saxlanmasının və inkişafının vacibliyini vurğulamağa kömək etmişdir.

## Nəticələr

Məqalədə Azərbaycan dilinin təhsil sahəsində formalaşması və inkişafı ilə bağlı bir sıra nəticələr əldə edilmişdir. Ana dilimizdə tədrisin keyfiyyətinin yüksəldilməsi təhsil müəssisələrinin qarşısında duran mühüm vəzifədir. Sürətli texnoloji inkişaf və qloballaşma şəraitində tədris metodlarının təkmilləşdirilməsi, tədris materiallarının daha səmərəli hazırlanması vacib şərtlərdəndir. Təhsildə rəqəmsal texnologiyaların rolundan bəhs edərkən qeyd etmək lazımdır ki, onlayn platformalardan və rəqəmsal resurslardan istifadə təhsil prosesinin ayrılmaz hissəsinə çevrilməklə yanaşı, məktəblilər və tələbələr üçün öyrənməni daha əlçatan və effektiv edir. Müasir dünyanın tələblərinə uyğun olaraq,

gənclər fəal şəkildə xarici dilləri öyrənir, uğurlu peşəkar inkişafa və beynəlxalq arenada müəyyən nüfuza malik olmağa çalışırlar. Müasir dövrdə Prezident İlham Əliyev dövlətimizin milli kimliyinin, dilinin və mədəni irsinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atır. Dövlətin təhsil strategiyasının mühüm tərkib hissəsi ölkədə dil savadlılığının inkişafına və təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş proqramların hazırlanmasıdır. Hazırda şagird və tələbələrin lazımi səviyyədə bilik və bacarıqlara yiyələnmələri üçün tədris və məzmun standartlarında islahatlar aparılır.

## Müzakirə

Ulu öndər Heydər Əliyevin dil siyasətinin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dilimizin inkişafı ilə bağlı bir çox qərarlar qəbul etmişdir. İ. Sərdarova yazır: *"Heydər Əliyevin dil siyasətinin əsaslandığı prinsiplərdən biri də dəqiqlik, uzaqgörənlikdir. Bütün sahələrdə olduğu kimi, dil siyasətində də o, qlobal məqsədləri əsas götürür və hər hansı bir məsələnin həllində onun bütün cəhətlərini, keçmişini, bu gününü, gələcəyini nəzərə alaraq, həll olunmasına qərar verir"* (Sərdarova, 2023).

Həmin dövrdə Yaxın Şərqdə, eləcə də Avropada Azərbaycan dili beynəlxalq səviyyədə tanınmırdı. Hər kəs dilimizi türk dili adlandırır, bizə isə türk olaraq müraciət edirdilər. Belə bir şəraitdə Heydər Əliyev Azərbaycan dilinin müstəqil dil kimi dünya miqyasında tanınması və inkişafı üçün bir çox tədbirlər görməyə başladı. Öncə Azərbaycanda təşkil edilən tədbir və konfranslara gələn xarici nümayəndələr üçün tərcüməçilərin təqdim olunmasına icazə vermədi. Konfranslarda iştirak edən hər kəs Azərbaycan dilində danışmalı idi. Kiril əlifbası latın əlifbası ilə əvəz edildi, eyni zamanda kitabxanalarda bütün nəşrlərin latın qrafikasına keçirilməsi barəsində qərar qəbul edildi. Bütün reklam afişaları latın qrafikasına keçirildi, televiziya və radio kanallarında rus dilində verilişlərin və kinofilmlərin yayımı qadağan edildi. Eyni zamanda aparıcıların ədəbi dil normalarına riayət etməsinə xüsusi diqqət yetirildi, efir iştirakçılarının dialekt və şivələrdən istifadə etməsi qəti qadağan edildi. Dilimizin təmizliyini qorumaqla yanaşı, mədəniyyət ocaqlarında, teatrlarda Azərbaycan dilində tamaşalar səsləndirilməyə başlanıldı.

Ulu öndərin dil siyasəti nəticəsində xalqımız həm doğma dilini, həm də milli-mənəvi keyfiyyətlərini, adət-ənənələrini, mədəni irsini geri qaytardı. Azərbaycan dilinin qorunub saxlanılması, inkişafı və tanınması proqramının ölkənin gələcək inkişaf strategiyasına daxil edilməsi onun siyasətə, beynəlxalq münasibətlərə qədər bütün istiqamətlərdə mövqelərinin möhkəmlənməsini dəstəkləyir. Lakin bütün bunlara baxmayaraq, hələ də Azərbaycan dilinin istifadəsini çətinləşdirən müxtəlif problemlərlə üzləşirik. Gündəlik

nitqdə dilin keyfiyyətinin aşağı düşməsi halları dilin sadələşməsinə gətirib çıxarır. Rəqəmsal sahələrdə Azərbaycan dilində məzmunlu informasiyaların çatışmazlığı dilin istifadə imkanlarını məhdudlaşdırır. Azərbaycan dilinin qorunub saxlanması və inkişaf etdirilməsi perspektivləri həm dövlət tədbirlərinin, həm də müxtəlif sahələrin – təhsilin, mədəniyyətin və texnologiyanın yeniliklərini inkişaf etdirən kompleks yanaşmalardan asılıdır. Təhsil sistemində Azərbaycan dilinin inkişafı ölkənin mədəni, intellektual və sosial inkişafında vacib amildir.

N. Məmmədli qeyd edir: *"Hər hansı bir dilin dövlət statusu alması, şübhəsiz ki, dövlətin formalaşmasının uzunmüddətli tarixi prosesi ilə bağlıdır. Bütün bunlar dövlətçilik tariximizdə o qədər də asan başa gəlməmişdi"* (Məmmədli, 2022, s. 4).

Təhsil sahəsində ana dilinin inkişafını göstərən yaxın tarixə nəzər salaq. Ölkəmiz 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan dilinin dövlət dili kimi möhkəmləndirilməsi strategiyası həyata keçirilməyə başladı. Bu, təhsil sistemində öyrənmə prosesi zamanı Azərbaycan dilinin başlıca bir dil kimi qəbul edilməsinə, eləcə də insanlar arasında dil savadlılığını formalaşdırmaq məqsədilə fəal inkişaf proqramının təmin edilməsinə səbəb oldu. Azərbaycan müstəqillik əldə etdikdən sonra milli dəyərlərin, adət-ənənələrin, dilin, mədəniyyətin inkişaf etdirilməsi və dəstəklənməsi problemini həll etmək zərurəti yaranmışdı. Haqlı olaraq qeyd edilir ki: *"Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas, bəlkə də yeganə təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir"* (Bədəlov, 2009, s. 3).

Azərbaycan dilinin statusunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən bir sıra islahatlar dilin qorunması və inkişafına yönəlmiş qanunların qəbul edilməsi sayəsində həyata keçdi. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanına əsasən, Azərbaycan dili dövlət dili kimi qəbul edildi, həmçinin onun ictimai həyatın müxtəlif sahələrində istifadəsinin zəruriliyi təsdiqləndi. Ana dilimiz mühüm mədəni ünsiyyət vasitəsinə çevrilərək, hər bir Azərbaycan vətəndaşının milli kimliyinin təsdiqini həyata keçirdi.

R. Hüseynovun qeyd etdiyi kimi bu fərmanda: *"Dövlətin ana dilinə hərtərəfli qayğısının təcəssümünü özündə əks etdirən dövlət dili haqqında qanunda Azərbaycan dilinin saflığının qorunması, ədəbi dilin normalarına əməl edilməsi, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafı üçün lazımi şəraitin yaradılması və s. kimi məsələlər də nəzərdə tutulmuşdur"* (Hüseynov, 2025).

Beləliklə, müstəqillik dövründə Azərbaycan dili xalqımızın suverenliyinin, birliyinin və milli kimliyinin rəmzi kimi formalaşdı. Eyni zamanda onun dövlət dili statusu qazanması məktəblərdə, universitetlərdə ana dilimizin rəsmi və əsas tədris dili kimi

möhkəmlənməsinə səbəb oldu. Dil qanunvericiliyi onun təhsil müəssisələrində istifadəsinə imkanlar yaratmaq üçün təkmilləşdirildi. Bu, Azərbaycan dilinin kurikulum fənn proqramına daxil edilməsini təmin etdi və onun təhsil sahəsində tətbiqinin genişlənməsinə şərait yaratdı. *"Azərbaycanda elmin, təhsilin elə bir sahəsi yoxdur ki, dövlət dilinin işlənməsi və fəaliyyəti konkret maddələr əsasında öz əksini tapmamış olsun. Müasir dövrdə Azərbaycan dili elə bir inkişaf mərhələsinə çatmışdır ki, elmi-texniki inkişaf nəticəsində yaranmış müxtəlif fikirləri, sözləri, anlayışları, xüsusi elmi və texniki terminləri çox asanlıqla ifadə etmək olar"* (Baxşəliyeva, 2019).

Azərbaycan dilinin öyrənilməsi zərurət əsas götürülərək təhsil proqramlarına yenidən nəzər yetirildi. Məktəblərdə bilik, savad və təhsil sistemini təkmilləşdirmək üçün ana dili dərslərinin sayı artırıldı, o cümlədən məktəbdaxili dərnəklərdə Azərbaycan dili və ədəbiyyatın tədrisi gücləndirildi. Azərbaycan dilinin inkişafı ilə yanaşı, müasir tələblərlə uyğunlaşan və tələbələrin rəqabətə davamlılığı baxımından mühüm əhəmiyyət kəsb edən digər xarici dillərin də (rus, ingilis) inkişafı istiqamətində yeni layihələr hazırlanmağa başlanıldı. Beləliklə, Azərbaycan dilinin öz əhəmiyyətini itirməməsinə xüsusi diqqət yetirildi. N. Nağıyevanın qeyd etdiyi kimi: *"Müxtəlif dilləri bilmək, əlbəttə ki, dövlət dilini bilmək şərtilə yaxşıdır"* (Nağıyeva, 2020, s. 11).

Müasir texnologiyalar və elektron resurslar Azərbaycan dilinin öyrənilməsi və tanınması baxımından bugünkü günümüzdə olduqca vacib rol oynayır. Öyrənənlərin bacarıqlarını təkmilləşdirmək və bütün məlumatlara çıxışı əlçatan etmək üçün elektron dərsliklər və resurslar, müxtəlif elektron platformalar üzərindən təşkil edilən kurslar və təlimlər təşkil edilir. Başda prezidentimiz olmaqla, dövlət qurumları və müxtəlif ictimai təşkilatlar Azərbaycan dilinin inkişafı ilə bağlı layihələri dəstəkləyir. Məsələn, dil bilikləri üzrə müxtəlif müsabiqələrin təşkili, öyrənənlər üçün lüğətlərin, kitabların, müxtəlif vəsaitlərin çap edilməsi və s. Belə təşəbbüslərin həyata keçirilməsi gənclərdə ana dilinə marağın formalaşmasına və dilin bütün imkanlarından geniş şəkildə istifadəsinə şərait yaradır.

**Nəticə**

Azərbaycan dövləti üçün dilimizin ancaq ümumi bilik səviyyəsinin formalaşması deyil, eyni zamanda elm sahəsində, rəsmi sferada istifadəsini inkişaf etdirmək zəruridir. Universitetlərdə bütün ixtisaslar üzrə proqramlar Azərbaycan dilində fəal şəkildə tətbiq edilir. Elmi məqalələrin, konfrans materiallarının, tezislərin və digər nəşrlərin dövlət dilində yazılmasına təşviq edilir ki, bu da ölkədə elm və təhsilin inkişafına hərtərəfli imkanlar açır. R. İsmayılovun da vurğuladığı kimi: *"Hazırkı Milli Kurikulumu müasir dünya təhsil standartlarına doğru ilk addım hesab etmək olar və bu statusda o öz funksiyasını layiqincə yerinə yetirir"* (İsmayılov, 2010, s. 4).

Ölkədə linqvistik mühitin formalaşdırılması və hərtərəfli inkişafını təmin etmək üçün çoxdillilik dəstəklənir. Məsələn, məktəb təhsilində uşaqlar Azərbaycan dili ilə yanaşı, digər dillərdə (türk, rus, ingilis) təhsil ala bilər və ya ana dilində təhsil alan şagirdlərə rus və ingilis dillləri xarici dil kimi tədris edilir. Bununla da şagirdlərin dünyagörüşü inkişaf etdirilir, dil bilikləri zənginləşdirilir və mədəniyyətlərarası kommunikasiya bacarıqları formalaşdırılır. Ş. Nəbiyeva qeyd edir: *"Təhsil sisteminin daimi təkmilləşməsi cəmiyyətin ümumi inkişafının tələb etdiyi mühüm amillərdən biridir"* (Nəbiyeva, 2010).

Beləliklə, Azərbaycan dilinin təhsil sistemində inkişafına dövlət səviyyəsində fəal dəstəyin həyata keçirilməsi müasir dövrdə həm məktəb, həm də ali təhsil müəssisələrində savadlı və mədəni mühitin formalaşmasına, öyrənənlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə geniş imkanlar açır.

**Ədəbiyyat**

1. Baxşəliyeva, Y. (2019, 22 may). *Dövlət müstəqilliyi və Azərbaycan dilinin inkişafı*. Bizimlider.com. https://bizimlider.com/gundem/1140-dvlt-mstqilliyi-v-azrbaycan-dilinin-inkiaf.html
2. Bədəlov, Ə. (2009, 01 avqust). Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. *Xalq qəzeti*, 3.
3. Hüseynov, R. (2025, 05 fevral). *Azərbaycan dilinin dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması bilavasitə Ulu Öndərin adı ilə bağlıdır.* Yap.org.az. https://www.yap.org.az/az/view/news/60460/azerbaycan-dilinin-dunya-azerbaycanlilarinin-unsiyyet-vasitesine-chevrilerek-beynelxalq-alemde-nufuzunun-artmasi-bilavasite-ulu-onderin-adi-ile-baglidir
4. İsmayılov, R. (2010, 01 oktyabr). Azərbaycan dilinin tədrisi: ənənə və müasirlik. *Azərbaycan müəllimi*, 4.

5. Quliyeva, S. (2023). *Beynəlxalq təcrübə əsasında Azərbaycan dilinin tədrisi və qiymətləndirilməsi məsələləri*. İct.az. https://ict.az/uploads/konfrans/ana_dili/28_Beynelxalq_tecrube_esasinda_Azarbaycan_dilinin_tedrisi_ve_qiymetlendirilmesi_meseleleri.pdf
6. Məmmədli, N. (2022, 29 iyul). Müstəqillik illərində Azərbaycan dilinə Heydər Əliyev qayğısı. *Respublika*, 4.
7. Nəbiyeva, Ş. (2010). *Ana dili tədrisi metodikasinin aktual problemləri.*
8. Sərdarova, İ. (2023, 05 may). *Azərbaycan dilinin inkişafı – Heydər Əliyevin uğurlu siyasəti.* Adu.edu.az. https://adu.edu.az/az/xeberler/xeberler/6980.html
9. Aliyeva, N. (2019, 29 yanvar). Bestsennoye dukhovnoye bogatstvo (Istoricheskiy put' rodnogo azerbaydzhanskogo yazyka do obrazovaniya ADR). *Kaspiy,* 9.
10. Naghiyeva, N. (2020, 8 dekabr). Russkiy yazyk v Azerbaydzhane po-prezhnemu vazhen i aktualen. *Novoye vremya*, 11.